Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi
birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ______________________ **Soyad** ______________________

# 11-ci sinif

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1. Verilmiş izahlara uyğun gələn sözlərin düzgün ardıcıllığını müəyyən edin.**

*1. öz gəlişi ilə bir yeri və ya şəxsi şərəfləndirmə*

*2.bir işi görmək üçün həvəsləndirmə, şövqə gətirmə*

*3. bədəni müəyyən üsulla kəsib əməliyyat aparma*

*4.narahatlıq, həyəcan*

*5.tanıma, təyin etmə*

A) 1.təşviq, 2.təşrif, 3,təşrih, 4.təşviş, 5.təşxis
B) 1.təşrif, 2.təşrih, 3.təşviq, 4.təşviş, 5.təşxis
C) 1.təşrif, 2.təşviq, 3.təşrih, 4.təşviş, 5.təşxis
D) 1.təşrif, 2.təşviq, 3.təşrih, 4.təşxis, 5.təşviş
E) 1.təşxis, 2.təşviq, 3.təşrih, 4.təşviş, 5.təşrif

**2. Yanlış olanları müəyyən edin.**

| **Frazeoloji birləşmə** | **Frazeoloji birləşmənin mənasının izahı** | **Frazeoloji birləşmənin sinonimi** |
|---|---|---|
| **əl açmaq** | 1) ehtiyacı olan bir şey istəmək | 6) əl qaldırmaq |
| **göyə çəkilmək** | 2) çox sevinmək | 7) qanad açıb uçmaq |
| **çəmini tapmaq** | 3) yolunu, üsulunu bilmək | 8) dilini bilmək |
| **boyun olmaq** | 4) səhvini etiraf etmək | 9) boynuna götürmək |
| **kürkünə birə düşmək** | 5) narahat olmaq | 10) təşvişə düşmək |

A) 1, 3, 5, 8
B) 2, 3, 4, 7
C) 4, 5, 9, 10
D) 2, 3, 6, 10
E) 2, 4, 6, 7

**3. Cədvələ əsasən yanlış fikirləri müəyyən edin.**

| Yazılışında səhv yoxdur. | Yazılışında bir səhv var. | Yazılışında iki səhv var. |
|---|---|---|
| 1. Humanitar siyasət məsələləri şöbəsi | 4. Beynəlxalq Ana dili Günü | 7. Nəsimi adına Dilçilik İnstitutunun terminologiya şöbəsi |
| 2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri | 5. Azərbaycan Respublikasının Baş Naziri | 8. Bakı şəhər İcra hakimiyyəti |
| 3. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 6. Əməkdar İncəsənət xadimi | 9. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu |

A) 1, 3, 5, 7
B) 2, 4, 8
C) 2, 7, 9
D) 3, 6, 9
E) 1, 4, 6, 7

**4.** *- Balinalar beyinlərindəki maqnit xüsusiyyətli kristallarla istiqaməti müəyyən edirlər.*

*- Yerin maqnit sahəsindəki dəyişikliklər balinaların sahilə çıxmalarına səbəb ola bilər.*

**Bu iki cümlədə ifadə olunan fikirlərin ən düzgün şəkildə birləşdirilmiş forması aşağıdakılardan hansıdır?**

A) Beyinlərindəki maqnit xüsusiyyətli kristallarla istiqamət tapan balinaların sahilə çıxma səbəbləri Yerin maqnit sahəsindəki dəyişikliklər nəzərə alınmaqla izah edilə bilər.
B) Balinalar istiqamət itirərək sahilə çıxsalar da, beyinlərindəki kristallar sayəsində Yerin maqnit sahəsindəki dəyişiklikləri izləyə bilər.
C) Balinalar beyinlərindəki maqnit kristallarına baxmayaraq, Yerin maqnit sahəsində baş verən dəyişikliklərdən təsirlənərək sahilə çıxa bilər.
D) Balinalar beyinlərindəki maqnit xüsusiyyətli kristallarla istiqamət tapdıqları üçün Yerin maqnit sahəsindəki dəyişikliklər onların sahilə çıxmalarına səbəb ola bilər.
E) Beyinlərindəki maqnit kristalların köməyi ilə istiqamət tapan balinaların Yerin maqnit sahəsi ilə qarşılıqlı əlaqəsi sahilə çıxmalarına səbəb ola bilər.

**5. Cədvələ əsasən doğru fikirləri müəyyən edin.**

| | | |
|---|---|---|
| 1. | Mübtəda kimi xitabın da forması ilə məzmunu arasında fərq olur. | doğru |
| 2. | *− Sən də bu axşam yola düşəcəksən?*<br>*− Hə, necə məgər?* − nümunəsində söz-cümlə işlənməmişdir. | yanlış |
| 3. | *Heç kəs səni* ***məncə*** *başa düşə bilməz.*<br>*Mürsəl müdirinə* ***sözsüz*** *itaət edir.*<br>Verilmiş cümlələrdə fərqləndirilmiş sözləri vergüldən asılı olaraq müxtəlif sintaktik vəzifədə düşünmək olar. | yanlış |
| 4. | Həmcins üzvlərin ifadə vasitələri sinonim və ya antonim sözlər ola bilər. | doğru |
| 5. | *O, adəti üzrə, səbir və təmkinlə danışırdı. (H.Mehdi)*<br>*Əfzəl nəinki sabiq dostu Veysələ bel bağladı, əksinə, onu daha artıq təqib etməyə başladı. (S.Rəhimov)*<br>Birinci cümlədə ara söz işlənsə də, ikinci cümlədə işlənməyib. | yanlış |

A) 1, 2, 5 B) 2, 4, 5 C) 2, 3, 4
D) 1, 3 E) 3, 4

**6. Verilən sözlərdən uyğun olanları müvafiq şərtlərə görə qruplaşdırın.**

1. yarı 2. maya 3. çaydan
4. qaya 5. ada 6. dini 7. çənə
8. şiş 9. buta 10. şəxsi

***I.*** *Yalnız isimdir və ismin iki müxtəlif halında düşünmək olar.*

***II.*** *Həm isim, həm də başqa nitq hissəsi kimi düşünmək olar.*

A) I - 2, 5, 6, 10; II - 1, 3, 4, 8
B) I - 1, 3, 7, 9; II - 2, 5, 6, 10
C) I - 3, 5, 7, 10 II - 1, 2, 6, 9
D) I - 2, 4, 5, 7; II - 1, 3, 8, 10
E) I - 2, 3, 5, 7; II - 1, 6, 8, 10

**7.** *"Axşamın düşməyinə az qalırdı ki, kəndə çatdım"* **– tabeli mürəkkəb cümləsinin baş cümləsi sadə cümlənin hansı növünə aiddir?**

A) şəxssiz cümlə
B) müəyyən şəxsli geniş cümlə
C) qeyri-müəyyən şəxsli cümlə
D) müəyyən şəxsli müxtəsər cümlə
E) ümumi şəxsli cümlə

**8. Müqayisə cədvəlinə əsasən düzgün fikirləri müəyyən edin.**

| ***Ey könül, min namə yaz bir gülzarın eşqinə.*** | ***Onun mühəndis işləyən dayısı 1992-ci ildə Vətən uğrunda şəhid olmuşdu.*** |
|---|---|
| 1. İsmin təsirlik halı ilə ifadə olunmuş tamamlıq var.<br>2. Həm əsas, həm də köməkçi nitq hissəsi işlənmişdir. | 3. Söz birləşməsi ilə ifadə olunmuş zərflik işlənmişdir.<br>4. Təyin işlənməmişdir. |
| 5. Məqsəd zərfliyi işlənmişdir.<br>6. Adlıq hallı söz cümlənin baş üzvüdür. | |

A) 1, 3, 6 B) 2, 4, 5 C) 1, 4, 5
D) 2, 3, 6 E) 1, 3, 5

**9. Bütün məqamları nəzərə almaqla feillərə aid ortaq fikirləri seçin.**

* içirdi
* keçirdin

1. Feilin iki müxtəlif şəklində düşünmək olar.
2. İki müxtəlif zamanda düşünmək olar.
3. Tərkibində bir leksik, bir qrammatik şəkilçi var.
4. Quruluşca həm sadə, həm də düzəltmə söz kimi təhlil etmək olar.
5. Sözdə "idi" hissəciyinin işləndiyini əminliklə demək olmaz.

A) 2, 3, 5 B) 2, 3, 4 C) 1, 3, 4, 5
D) 1, 2, 3, 4 E) 2, 4, 5

**10. Cədvələ əsasən "*cəsarətlə*" sözünün fonetik xüsusiyyətləri ilə bağlı doğru fikirləri müəyyən edin.**

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| *1. Yazılışı və tələffüzü arasında iki fərqli məqam var.* | *4. Sözdə yalnız açıq saitlər işlənmişdir.* |
| *2. Vurğusu son hecanın üzərinə düşür.* | *5. Ahəng qanunu pozulmamışdur.* |
| *3. Sözdə qarşılığı olmayan iki samit işlənmişdir.* | *6. İki hecası samitlə bitir.* |

A) 2, 3, 6
B) 1, 4, 5
C) 1, 5, 6
D) 1, 2, 3
E) 3, 4, 6

**11. Cədvələ və nümunələrə əsasən uyğun fikirləri müəyyən edin.**

1. *Ədalət qütb ulduzu kimi yerində dayanar və geri qalan hər şey onun ətrafında dönər. (Konfutsi)*
2. *Heç səhv etməyən insan heç bir şey etməyən insandır. (Yunus Əmrə)*

| **Birinci cümləyə aid doğru fikirdir.** | **İkinci cümləyə aid yanlış fikirdir.** |
|---|---|
| 1. Həmcins xəbərli sadə cümlədir.<br>2. Həm təsriflənən, həm də təsriflənməyən feil işlənmişdir.<br>3. Yalnız qrammatik mənası olan söz işlənməmişdir. | 4. Üç müxtəlif cümlə üzvü işlənmişdir.<br>5. Yazılışı ilə deyilişi fərqlənən söz yoxdur. |

A) 3, 5
B) 1, 4
C) 1, 5
D) 2, 5
E) 2, 4

**12.** Bəzi yazıçılar romanın ictimai həyatdakı nöqsanların aradan qaldırılmasına kömək etməsini, .......................... istəyərkən, bəziləri isə romanın cəmiyyətşünaslıq kitabı deyil, bir sənət əsəri olduğunu, ondan yalnız ..................... gözlənilə biləcəyini irəli sürür.

**Boşluqlara uyğun gələn ifadələri müəyyən edin.**

A) istehzanı ön plana çıxarmasını – yaxşı bir ifadənin
B) həqiqətləri əks etdirməsini – bələdçilik etməsinin
C) gözəllikləri təsvir etməsini – qüsursuz dil istifadəsinin
D) doğru yolu göstərməsini – ədəbi gözəlliyin
E) ənənəni ötürməsini – məntiqi bir axışın

**13.** *"Vəfa hər kimsədən kim istədim, ondan cəfa gördüm.*
*Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm".*

**Verilən parça ilə bağlı hansı fikir doğru deyil?**

A) Məsnəvi janrındadır.
B) M.Füzulinin "Leyli və Məcnun" əsərindəndir.
C) Məcnunun dilindəndir.
D) Rədif işlənmişdir.
E) Təzad işlənmişdir.

**14. M.Ə.Sabir haqqında verilən fikirlərdən hansılar doğrudur?**

1. “Palanduz” imzası ilə satiralar yazmışdır.
2. “Səttarxana”satirası Cənubi Azərbaycan mövzusundadır.
3. Şair uzun müddət Balaxanıda açdığı “Ümid” məktəbində çalışıb.
4. Lirik şeirlərinin birində dərdinə dərman tapılmamasını arzulayır.
5.Şair ölkədə və ölkədən kənardakı bəzi siyasi hadisələrə öz əsərlərində münasibət bildirmişdir.

A) 2, 3, 4 B) 1, 2, 5
C) yalnız 4, 5 D) 3, 5
E) 1, 4, 5

**15. “Qazan xanın evinin yağmalandığı” boyda Qazan xanın qardaşı Qaragünənin yuxu yozumlarında verilənlərdən biri yoxdur.**

A) bulud B) qar C) saç
D) qan E) duman

**16. N.Gəncəvinin “İskəndərnamə” əsəri ilə bağlı hansı fikir doğru deyil?**

A) Əsərdə obrazların dilindən verilmiş lirik parçalar da var.
B) Poemada İskəndər üç nəsihətnamə yazdırır.
C) İskəndər Daranın sərkərdələrinə inanmır.
D) Ölüm anında İskəndər özünü birgünlük körpəyə bənzədir.
E) Əsərdə İskəndəri təəccübləndirən məkan təsvir olunmuşdur.

**17. Orta əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı verilən fikirlərdən doğru olmayanı müəyyən edin.**

A) Bu dövrün irfani-fəlsəfi seirlərinin qəhrəmanı olan aşiqin eşqi insani yox, ilahi eşqdir.
B) Şeyx Səfiəddin Ərdəbili və Zülfüqar Şirvaninin yaradıcılığında sufi-irfani (irfani fəlsəfi) düşüncələr öz əksini tapmışdır.
C) Həsənoğlunun “Apardı könlümü.....” qəzəli ilahi məhəbbət mövzusundadır.
D) Bu dövrdə baş qəhrəmanın ölümünə sevinən insanların təsvir olunduğu əsər yazılmışdır.
E) ”Yar”, ”dilbər” kimi sözlər fərqli mənalar da daşıyırdı.

**18. C.Məmmədquluzadənin “Anamın kitabı”tragikomediyasının hansı qəhrəmanı bəzi xüsusiyyətlərinə görə C.Cabbarlının “Oqtay Eloğlu”əsərindəki Aslan bəy obrazını xatırladır?**

A) S.Vahid B) M.Məhəmmədəli
C) Rüstəm bəy D) Zaman
E) Mirzə Həsən

**19. Uyğunluğun pozulduğu bəndi müəyyən edin.**

A) Yazıçının ideyalarının ifadə vasitəsi, təzahür formasıdır - *surət*
B) Səs tərkibi etibarilə bir-birinə yaxın olan sözlərdən yaranır - *qafiyə*
C) Latın sözüdür, qurmaq, əlaqə, tərtib etmək deməkdir - *kompozisiya*
D) Ərəb sözüdür, mənası eynicinsli deməkdir - *məsnəvi*
E) Bədii əsərdə surətin nigarançılığını, məyusluğunu və s. təsvir edir - *əhval-ruhiyyə təsviri*

**20. M.F.Axundzadənin “Aldanmış kəvakib” əsərindən verilmiş nitqlərin kimə aid olduğunu ardıcıllıqla qeyd edin.**

*1. -Bu halda ki,qibleyi-aləmin vücudu ulduzların təsirindən qorxu altındadır,mənim ürəyim tavadakı balıq kimi büryan olur.*

*2. -İmkanım qədər sizin hər birinizə nəvaziş və mərhəmət göstərmişəm,sizdən də çox razı və xoşnudam.*

*3. -Gərək xalqdan heç kəs bu tədbiri bilməyə və zənn etməyə ki,qibleyi -aləm taxt-tacdan müvəqqəti əl çəkir.*

*4. -Öz rəftarlarında heç bir qanun və qaydaya əsaslanan deyildirlər. Bu cür rəftar ancaq zülm və yolkəsənlərin əməlidir.*

*5. -Belə işlər xüsusunda mənim düzgün işləyən zehnim məharət göstərir.*

A) Axund Səməd, Şah Abbas, Mövlanə Cəmaləddin, Axund Səməd, Mirzə Yəhya

B) Yusif Sərrac, Axund Səməd, Mirzə Sədrəddin, Şah Abbas, Mövlanə Cəmaləddin

C) Mirzə Yəhya, Yusif Sərrac, Şah Abbas, Mirzə Yəhya, Sərdar Zaman

D) Xacə Mübarək, Mirzə Möhsün, Sərdar Zaman, Mövlana Cəmaləddin, Mirzə Yəhya

E) Mirzə Yəhya, Şah Abbas, Axund Səməd, Mirzə Möhsün, Yusif Sərrac